***İBTİDAİ TƏHSİLİN AKTUAL PROBLEMLƏRİ***
***ACTUAL PROBLEMS OF PRIMARY EDUCATION***
***АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ НАЧАЛЬНОГО ОБРАЗОВАНИЯ***

*UOT 372.3/.4*

***Təranə Mayıl qızı Əkbəri***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Şamaxı filialının baş müəllimi?*
*biologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0001-9293-4561*
*E-mail:akbarietmp@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(5).198-201*

# İBTİDAİ SİNİFLƏRDƏ HƏYAT BİLGİSİ DƏRSLƏRİNDƏ LAYİHƏ ƏSASLI ÖYRƏNMƏNİN TƏTBİQİ

***Tarana Mayil Akbari***
*senior lecturer of Shamakhi branch under*
*Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in biology*

# IMPLEMENTATION OF PROJECT-BASED LEARNING IN PRIMARY SCHOOL LIFE SCIENCE LESSONS

***Тарана Майил гызы Акбари***
*старший преподаватель Шамахинского филиала*
*Азербайджанского Государственного Педагогического Университета?*
*доктор философии по биологии*

# ПРИМЕНЕНИЕ ПРОЕКТНОГО ОБУЧЕНИЯ НА УРОКАХ ПОЗНАНИЯ МИРА В НАЧАЛЬНЫХ КЛАССАХ

**Xülasə.** Məqalədə ibtidai siniflərdə Həyat bilgisi fənnində layihə əsaslı öyrənmənin (PBL) tətbiq imkanları araşdırılır. Tədqiqat PBL-in kurikulum məqsədlərinə uyğun şəkildə şagirdlərin tənqidi təfəkkür, əməkdaşlıq, müstəqil öyrənmə və real həyati problemləri həll etmə bacarıqlarına təsirini nəzərdən keçirir. Məqalədə “Mənim ailəm”, “Sağlam qidalanma” və “Təbiəti qoruyaq” kimi nümunəvi layihələr əsasında şagirdlərin dərsə inteqrasiyası və dərin öyrənməyə yönəldilməsi izah olunur. Nəticələr göstərir ki, PBL modeli Həyat bilgisi dərslərinin məqsədlərinə çatmaqda effektiv alət ola bilər.

***Açar sözlər:*** *Layihə əsaslı öyrənmə, Həyat bilgisi, ibtidai təhsil, kurikulum, fəal öyrənmə, şagirdyönümlü təlim*

**Abstract.** The article explores the implementation of project-based learning (PBL) in primary school Life Science lessons. The study examines the impact of PBL on students' critical thinking, collaboration, independent learning, and problem-solving skills in alignment with curriculum goals. Through sample projects such as “My Family,” “Healthy Eating,” and “Let’s Protect Nature,” the article illustrates how students engage more deeply with content and participate actively in the learning process. Findings indicate that the PBL model is an effective approach to achieving the objectives of the Life Science subject.

***Key words:*** *Project-based learning, Life Science, primary education, curriculum, active learning, student-centered instruction*

**Аннотация.** В данной статье рассматриваются возможности применения проектно ориентированного обучения (PBL) на уроках «Познание мира» в начальных классах. Исследование анализирует влияние PBL на развитие у учеников критического мышления, навыков сотрудничества, самостоятельного обучения и решения жизненных проблем в соответствии с целями курикулума. На ос-

нове таких проектов, как «Моя семья», «Здоровое питание» и «Защитим природу», демонстрируется вовлеченность учащихся в учебный процесс и углублённое освоение материала. Результаты показывают, что модель PBL является эффективным средством достижения целей предмета.

***Ключевые слова:*** *Проектное обучение, Познание мира, начальное образование, курикулум, активное обучение, обучение, ученико-ориентированное обучение*

Müasir dövrdə təhsil sistemində gedən islahatlar, xüsusilə də ibtidai təhsil mərhələsində tətbiq olunan pedaqoji yanaşmaların yenilənməsi, bu mərhələnin strateji əhəmiyyətini daha da artırır. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə milli strategiya sənədləri və dövlət proqramları, erkən yaşlardan başlayaraq şagirdlərdə həyati bacarıqların formalaşdırılmasını prioritet istiqamət kimi müəyyən edir. XXI əsr bacarıqları kimi tanınan tənqidi düşünmə, əməkdaşlıq, problem həll etmə və yaradıcı yanaşma kimi qabiliyyətlərin təməli məhz ibtidai siniflərdə qoyulur. Bu baxımdan, ibtidai təhsil təkcə akademik biliklərin verildiyi mərhələ deyil, həm də uşağın şəxsiyyət kimi formalaşdığı, sosiallaşdığı və cəmiyyətlə ilk funksional əlaqələrini qurduğu dövrdür.

İbtidai siniflərdə tədris olunan Həyat bilgisi fənni isə bu məqsədlərə xidmət edən əsas inteqrativ komponentlərdən biri kimi çıxış edir. Fənn məzmununa daxil olan mövzular – şəxsiyyət və ətraf mühit, ailə və cəmiyyət, təhlükəsizlik, sağlam həyat tərzi, təbiət və onun qorunması – şagirdin dünyagörüşünün formalaşmasına bilavasitə təsir göstərir. Həyat bilgisi fənni vasitəsilə şagirdlər real həyatla əlaqəli bilik və bacarıqları mənimsəyir, onlarda ətraf mühitlə əlaqəli məsuliyyət hissi və vətəndaşlıq mövqeyi formalaşdırılır. Təhsil üzrə müasir yanaşmalarda bu fənn "təcrübəyönlü təhsil" konsepsiyası çərçivəsində daha da aktuallaşır (UNESCO, 2015).

Müasir kurikulumlarda bu fənnin əsas vəzifəsi şagirdlərdə ətraf aləmi müşahidə etmək, hadisələr və situasiyalar arasında səbəb-nəticə əlaqəsi qurmaq, sadə qərarlar vermək və sosial məsuliyyət daşımaq kimi bacarıqları inkişaf etdirməkdir. Bu baxımdan, ənənəvi dərs metodlarının yerinə şagirdin fəal iştirak etdiyi, tədqiqata, təcrübəyə və yaradıcı yanaşmaya əsaslanan metodların tətbiqi qaçılmazdır. Son illərdə Azərbaycan ibtidai təhsilində tədrisin interaktiv formalarının tətbiqi, o cümlədən layihə əsaslı öyrənmə (Project-Based Learning – PBL) metodu bu ehtiyacdan doğmuşdur.

Müasir dövrün təhsil sistemləri ənənəvi bilik mərkəzli yanaşmalardan uzaqlaşaraq daha çox bacarıqyönlü, təcrübə əsaslı və öyrənəni mərkəzə alan modellərə üstünlük verməyə başlamışdır. Bu transformasiyanın ön sıralarında yer alan pedaqoji yanaşmalardan biri də Layihə Əsaslı Öyrənmə (Project-Based Learning – PBL) modelidir. PBL, tədris prosesini şagirdlərin real problemləri araşdıraraq, onların üzərində işləyərək və nəticədə konkret məhsul yaradaraq öyrəndiyi fəal öyrənmə forması kimi müəyyən olunur (Thomas, 2000).

Layihə əsaslı öyrənmə şagirdin passiv dinləyici olmaqdan çıxaraq, bilavasitə öyrənmə prosesinə fəal şəkildə daxil olduğu bir modeli təmsil edir. Bu metodun əsasında John Dewey-in təcrübə əsaslı təhsil fəlsəfəsi dayanır; Dewey təhsilin həyatla birbaşa əlaqəli olması zərurətini vurğulayırdı. Onun "öyrənmək edərək baş verir" tezisi PBL-in mahiyyətini izah edən açar prinsipdir. (Dewey, 1938).

PBL metodunun müasir təhsil sistemində rolu yalnız nəzəri əsaslarla yox, praktik təsirləri ilə də ölçülür. Araşdırmalar göstərir ki, layihə əsaslı öyrənməni tətbiq edən siniflərdə şagirdlərdə tənqidi düşünmə, yaradıcı yanaşma və kompleks problem həll etmə bacarıqları əhəmiyyətli dərəcədə artır (Barron & Darling-Hammond, 2008). Bu bacarıqlar isə hazırkı əmək bazarında ən çox tələb olunan kompetensiyalar sırasındadır.

Ənənəvi təlim modellərində dərslərin əsas məqsədi bilik ötürmək və faktların əzbərlənməsi olduğu halda, PBL kontekstində əsas məqsəd şagirdin öyrəndiklərini tətbiq edə bilməsi, müstəqil düşünməsi və nəticə çıxarma bacarığı qazanmasıdır. Bu da təhsil sisteminin keyfiyyətli insan kapitalı yetişdirmək missiyasını dəstəkləyir.

Layihə əsaslı öyrənmə, həmçinin fənlərarası əlaqələrin qurulması üçün unikal imkanlar təqdim edir. Məsələn, "Ekoloji problemlər və onların həlli yolları" adlı bir layihə təkcə biologiya və coğrafiya ilə məhdudlaşmır; burada şagirdlər riyazi ölçmələr aparır, sosial statistik məlumatları təhlil edir, dil bacarıqları vasitəsilə təqdimatlar hazırlayırlar və bu prosesdə informasiya texnologiyalarından istifadə edirlər.

Beləliklə, PBL fənlərarası inteqrasiyanı reallaşdıran effektiv modellərdən biri hesab olunur.

Dünya miqyasında Finlandiya, Kanada, Sinqapur və Estoniya kimi qabaqcıl təhsil sistemləri layihə əsaslı öyrənməni tədris proqramlarının ayrılmaz hissəsi kimi tətbiq edirlər. Məsələn, Finlandiyada ibtidai siniflərdən başlayaraq şagirdlər hər rübdə bir layihə üzərində işləyir və bu layihələr onların ümumi inkişafına qiymətləndirmə meyarı kimi daxil edilir (Sahlberg, 2011). Azərbaycan təhsil sistemində də 2008-ci ildən etibarən kurikulum islahatları nəticəsində fəal təlim metodlarının, o cümlədən PBL-in tətbiqi təşviq edilir. Lakin bu proses bəzi hallarda müəllim hazırlığı və resurs çatışmazlığı səbəbindən arzuolunan səviyyədə həyata keçirilmir.

Layihə əsaslı öyrənmə həmçinin inklüziv təhsil kontekstində də mühüm rol oynayır. Çünki bu model hər bir şagirdin öz potensialına uyğun şəkildə iştirak edə biləcəyi tədris mühiti yaradır. Tələbələrin fərqli öyrənmə tərzlərinə və maraq sahələrinə uyğun layihə mövzularının seçilməsi, onların motivasiyasını və dərsə bağlılığını artırır (Krajcik & Blumenfeld, 2006). Fərqli bacarıq səviyyəsində olan şagirdlər layihələrə öz töhfələrini müxtəlif formalarda verə bildikləri üçün heç kim prosesdən kənarda qalmır. Biri təqdimat hazırlayır, digəri rəsmlə ifadə edir, digəri isə məlumat toplamaqla məşğul olur. Bu isə həm bərabərlik, həm də əməkdaşlıq dəyərlərini təşviq edir (Thomas, 2000).

Kurikulum sənədlərində qeyd olunduğu kimi, Həyat bilgisi fənni üzrə dərs məqsədləri konkret bacarıq indikatorları ilə müəyyən olunur. Məsələn, 2-ci sinifdə "Şəxsi gigiyena qaydalarına əməl edir", "Ailənin üzvlərini tanıyır və funksiyalarını izah edir", "Təbiəti qorumağın yollarını sadalayır" kimi təlim nəticələri layihələrin əsas istiqamətlərini təşkil edə bilər (AR Təhsil Nazirliyi, 2020). Bu nəticələr layihəyönlü tədris mühitində daha təsirli şəkildə mənimsənilə bilər.

Misal üçün, "Mənim ailəm" adlı layihə vasitəsilə şagirdlər ailə üzvlərinin adlarını, onların gündəlik vəzifələrini, ailə münasibətlərində hörmət və əməkdaşlıq kimi sosial dəyərləri öyrənə bilər. Bu layihə çərçivəsində şagirdlər ailə ağacı tərtib edir, ailə üzvlərindən müsahibə alır və kiçik təqdimatlar hazırlayırlar. Nəticədə uşaqlar təkcə ailə haqqında bilik əldə etmir, həm də ictimai təqdimetmə bacarığı, məlumat toplama və sistemləşdirmə vərdişləri qazanırlar (Katz & Chard, 2000).

Digər əhəmiyyətli layihə nümunəsi "Sağlam qidalanma" mövzusudur. Bu layihə ilə şagirdlər sağlam və zərərli qidaları ayırd etməyi, balanslı rasion hazırlamağı, gigiyenik qida istehlakı prinsiplərini öyrənir. Onlar evdən və məktəbdən qida menyusu nümunələri toplayır, şəkil və infoqrafikalar hazırlayır, sağlam səhər yeməyi menyusu layihələndirirlər. Bu proses həm də riyazi (kalori hesabı), dil (təqdimat) və texnologiya (infoqrafika hazırlama) bacarıqlarını stimullaşdırır.

Üçüncü praktik nümunə isə "Təbiəti qoruyaq" layihəsidir. Bu layihədə şagirdlər yaxın ətrafda rast gəlinən ekoloji problemləri (məsələn, zibillənmə, su israfı, ağacların kəsilməsi) müşahidə edir, foto və video sənədləşdirmə aparır, plakatlar və sloqanlar hazırlayır, eyni zamanda məktəbdə və ailədə ekologiyaya dair məlumatlandırıcı kampaniyalar təşkil edirlər. Bu yanaşma nəticəsində uşaqlarda ekoloji şüur formalaşır, vətəndaşlıq məsuliyyəti artır və real həyatda faydalı təşəbbüslərə cəlb olunurlar (Blumenfeld et al., 1991).

Araşdırmalar göstərir ki, PBL ilə öyrənən ibtidai sinif şagirdləri ənənəvi metodlarla öyrənən həmyaşıdlarına nisbətən 20-30% daha yüksək yadda saxlama qabiliyyəti və tətbiqetmə bacarığı nümayiş etdirirlər (Boaler, 2002). Məsələn, "Təbiəti qoruyaq" adlı layihə üzərində işləyən şagirdlər zibilin çeşidlənməsi, enerji qənaəti və su israfının qarşısı kimi anlayışları yalnız əzbərlə deyil, onları müşahidə, fotoqrafiya, təqdimat və praktiki təşəbbüslər vasitəsilə öyrənirlər. Bu isə biliklərin yalnız bilik səviyyəsində deyil, tətbiq, təhlil və yaradıcı sintez mərhələlərində mənimsənilməsinə şərait yaradır (Bloom, 1956; Fullan & Langworthy, 2014).

Müasir təhsil sistemlərinin əsas məqsədi yalnız bilikli fərdlər deyil, problemləri analiz edə bilən, yaradıcı düşünən və əməkdaşlığa açıq vətəndaşlar yetişdirməkdir. Layihə əsaslı öyrənmə bu məqsədlərə xidmət edən ən təsirli yanaşmalardan biri kimi qəbul edilir. Bu model ibtidai sinif səviyyəsində tətbiq olunduqda, şagirdlərdə öyrənməyə qarşı pozitiv münasibət, yüksək nailiyyət səviyyəsi və sosial məsuliyyət hissi inkişaf edir.

Sonda qeyd etmək olar ki, ibtidai sinifdə şagirdin təlimə münasibətini formalaşdırmaq

onun gələcək nailiyyətlərini müəyyən edən əsas amillərdəndır. Layihə əsaslı öyrənmə bu münasibəti pozitiv şəkildə formalaşdıraraq, uşaqların məktəbi yalnız bilik mənbəyi deyil, həm də yaradıcılıq, tədqiqat və əməkdaşlıq mühiti kimi qavramasına şərait yaradır. Bu da şagird nailiyyətlərinin keyfiyyət və dərinlik baxımından yüksəlməsinə səbəb olur.

**Problemin aktuallığı.** Müasir dövrdə təhsil sistemində əsas məqsədlərdən biri şagirdin şəxsiyyət kimi formalaşmasına, onun yaradıcılıq, tənqidi düşüncə və qərarvermə bacarıqlarının inkişafına şərait yaratmaqdır. Xüsusilə ibtidai siniflərdə Həyat bilgisi dərsləri bu bacarıqların təməlini qoyur. Layihə əsaslı öyrənmə bu məqsədlərə xidmət edən ən təsirli yanaşmalardan biri kimi qəbul edilir. Bu səbəbdən, şagirdyönümlü yanaşmalara keçid zərurət təşkil edir və bu məsələ pedaqoji cəhətdən aktuallığını qoruyur.

**Problemin yeniliyi.** Məqalədə Həyat bilgisi dərslərində layihə əsaslı öyrənmə yanaşması konkret mövzu və kurikulum məqsədlərinə uyğun şəkildə sistemləşdirilərək təhlil edilir. Bu istiqamətdə Azərbaycanda mövcud tədqiqatlar az saydadır və layihə nümunələrinin dərs məqsədləri ilə uyğunluğu çox zaman nəzəri müstəvidə qalır. Bu araşdırma PBL-in real tətbiq modellərini ibtidai təhsil mühitinə uyğunlaşdırmaqla metodoloji boşluğu doldurur.

**Problemin praktik əhəmiyyəti.** Layihə əsaslı öyrənmənin Həyat bilgisi dərslərində tətbiqi, şagirdlərin motivasiyasını artırmaq, öyrənməni mənalandırmaq və dərin öyrənməni təşviq etmək baxımından praktik əhəmiyyət kəsb edir. Bu yanaşma həmçinin müəllimlərə tədrisdə yaradıcı, şagird yönümlü metodlardan istifadə etməyə şərait yaradır. Beləliklə, əldə edilən nəticələr təhsil siyasəti və pedaqoji praktikada tətbiq oluna biləcək tövsiyələr xarakteri daşıyır.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Azərbaycan Respublikasının Təhsil İnstitutu //Azərbaycan Respublikasinin ümumi təhsil müəssisələri üçün "Həyat Bilgisi" fənni üzrə Təhsil Proqrami (Kurikulum) (I-IV Siniflər). - Bakı, 2023. - s 40.
2. Ayvacı, H. Ş., Devecioğlu, Y. ve Yiğit, N. İlköğretim fen ve teknoloji derslerinde proje tabanlı öğrenmenin öğrenci başarısına etkisi. // Türk Fen Eğitimi Dergisi, -2004. C.1, №1, -s. 1–14.
3. Korkmaz, H. ve Kaptan, F. Fen eğitiminde proje tabanlı öğrenme yaklaşımının öğrenci tutumlarına ve başarıya etkisi. // -Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi, -2002. №22, -s. 91–97.
4. Thomas, J. W. A Review of Research on Project-Based Learning. // The Autodesk Foundation, -2000, -pp. 1–47.
5. Barron, B., & Darling-Hammond, L. Teaching for Meaningful Learning: A Review of Research on Inquiry-Based and Project-Based Learning. // George Lucas Educational Foundation, -2008, -pp. 11–70.
6. Blumenfeld, P. C., Soloway, E., Marx, R. W., et al. Motivating project-based learning: Sustaining the doing, supporting the learning. // -Educational Psychologist, -1991. Vol. 26, №3–4, -pp. 369–398.

**Redaksiyaya daxil olub:**17.09.2025